# Sovet dövrü Azərbaycan rəngkarlığında natürmort janrının bədii xüsusiyyətləri

**Dürdanə Yüzbaşiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** yuzbasiyeva@gmail.com

**Rəyçilər:** s.ü.f.d., dos. S.Q.Sadıqov
s.ü.f.d., dos. E.N. Musayeva

**Açar sözləri:** natürmort, rəngkarlıq, rəssam, rəng, arxa fon, meyvə, gül
**Ключевые слова:** натюрморт, живописи, художник, цвет, задний фон, фрукт, цветок
**Key words:** naturomat, paintings, artist, color, background, fruit, flower

Rəngkarlıq əsərlərini fərqləndirən başlıca xüsusiyyət onlara xas olan dərin obrazlılıqdan, ifadə gözəlliyindən, bədii kamilliyindən ibarətdir. Bədii obraz incəsənətdə gerçəkliyin əks olunması ilə bərabər sənətkarın düşündüklərini və hisslərini ifadə etmək vasitəsidir. Rəngkarlıq əsərlərinin obrazları rəssamın həyata emosional və intellektual münasibətini ümumiləşdirir, onun estetik idealını təsdiq edir. Həmin obrazla, əsasən insanın mənəvi aləmi, fəaliyyəti, mübarizəsi, qəhrəmanlığı, ictimai, əxlaqi, ailəvi münasibətləri, ətraf mühit və təbiət ilə əlaqəsində təzahür edir.

Rəssamlığın mənzərə və natürmort janrlarında ətraflı süjet olmur, məişətin, təbiətin müəyyən guşəsi canlandırılır və təsvir insanın həyata, ətraf mühitə münasibətini aşkara çıxarır. Rəssamlıq əsərləri tamaşaçının təsəvvürünə qida verir, insanı əhatə edən predmetlər aləmi vasitəsilə sözaltı məna axtarmağa çalışır. Məsələn, xalq rəssamı Əzim Əzimzadənin “Varlı evində toy” adlı tablosunda təkcə personajların obrazları deyil, hətta onları əhatə edən məişət zinətləri zəngin və qiymətli avadanlıq, sanki dil açıb danışır. Deməli, məişətdə personajları əhatə edən xüsusiyyətlər onların zövqü, fəaliyyətin həyat tərzi, məşğuliyyəti haqqında bildirir.

Dəzgah rəngkarlığı ölkəmizdə XX əsrdə meydana çıxmış təsviri sənətin yeni tipli növü kimi təşəkkül tapmışdır. Milli rəngkarlıq məktəbinin görkəmli nümayəndələrindən Əzim Əzimzadənin, Bəhruz Kəngərlinin, Mikayıl Abdullayevin, Tahir Salahovun, Səttar Bəhlulzadənin, Toğrul Nərimanbəyovun tabloları tamaşaçıların hörmətini qazanmışdır.

Rəngkarlıq sənəti məzmununa görə müxtəlif növləri canlı təbiətin ictimai həyatın insan fəaliyyətinin inkişafıdır. Bu kimi müxtəlif mövzuları inkişaf etdirmək üçün rəssam zəngin və tükənməz fantaziyaya sərrast görmə qabiliyyətinə iti qavrayışa əllərin məharətinə malik olmalıdır.

Rəngkarlıq sənəti mövzu və obrazlara görə müxtəlif janrlara bölünür. “Janr” fransızca “cins”, “növ” deməkdir və sənət əsərlərini mövzusuna, quruluşuna görə təsnifatın estetik mahiyyətidir. İncəsənət nəzəriyyəsində janrları silsilə üzrə “ali” və “aşağı” kateqoriyalara ayırmaq olmuşdur. Məsələn, tarixi janr yüksək, mürəkkəb, ali, rəssamın fərdi məharəti və yaradıcı təxəyyülü ilə bağlı janr sayılırdı. Mənzərə və natürmort janrları isə nisbətən asan, sanbalına görə yumorist, komik, yəni məzhəkəli əsərlərə nisbətən dramatik faciəvi əsərlərə daha üstünlük verilir. Lakin əslində rəngkarlıq əsərlərinin dəyərini bu xüsusiyyətinə görə qiymətləndirmək şərti və mübahisəlidir.

Azərbaycan təsviri sənətinin aparıcı sahəsi olan rəngkarlıqda natürmort janrı öz bədii cəhətləri ilə seçilir. Natürmort yalnız təsviri sənətin müstəqil bir janrı kimi mövcud deyil, o

yeni yaradıcılığa başlayan rəssamlar üçün böyük təlim mənası da daşıyır. Natürmort (fr.nature morte sözündən götürülüb tərcüməsi “cansız natura” təbiət deməkdir) -cansız əşyaların güllərin ölü heyvanların rəsmləridir. Adından da göründüyü kimi təsviri sənətin müxtəlif texnikalarında işlənən natürmortlarda müxtəlif əşyalar (məişət əşyaları, gül-çiçək, meyvə, vurulmuş ov quşları və s.) təsvir olunur. Dünya rəssamlığında olduğu kimi bu janr Azərbaycan təsviri sənətində də geniş yayılıb.

Natürmortun tarixi XV-XVl əsrlərə çatır. O zaman natürmortları dini rəsmlərə aid edirdilər. Bu dövrün rəssamları məişətə və insanın şəxsi həyatına maraq göstərməyə başlayır. Rəssamlara uzun müddət natura üzərində işləməyə, tələsmədən hər bir əşyanın xüsusiyyətini öyrənmək və onların həcm formalarını işıq kölgə vasitələri ilə düzgün verməyə imkan yaradır. Əşyaları öz aralarında quraşdırmaq bacarığı və natürmort tərtib etmək mürəkkəb işdir və müəyyən vərdiş tələb edir. Natürmortu elə tərtib etmək lazımdı ki, bir əşya digərlərinin qabağını tutmasın, lakin onları bir-birindən çox da aralı yerləşdirmək lazım deyil. Hər bir natürmort kompozision mərkəzə malikdir. O, adətən ölçüsünə görə iri yaxud hündür əşya olur.

Azərbaycan rəngkarlığında fəaliyyət göstərmiş bir çox rəssamların yaradıcılığında natürmort janrlı əsərlər üstünlük təşkil edir. Bu sahədə Sovet dövrünü fəaliyyət göstərmiş Azərbaycanın bir çox rəssamın natürmorta üstünlük vermiş cansız təbiət və əşyaları bədii tutum vermək sahəsində rəssamlarımız ustalıq göstərmişlər. Bu janrda uğurlu fəaliyyət göstərən rəssamlarımızdan Tağı Tağıyevin, Mikayıl Abdullayevin, Böyükağa Mirzəzadənin, Tahir Salahovun, Toğrul Nərimanbəyovun, Səttar Bəhlulzadənin, Davud Kazımovun və başqalarının adlarını qeyd etmək olar.

Azərbaycan xalq rəssamı Tağı Tağıyev yaradıcılığında üstünülk təşkil edən natürmort əsərlərin bədii can verməyi uğurla öhdəsindən gəlmişdir. Bu sahədə rəssamın: “Tərəvəzlərlə natürmort”, “Stəkanla natürmort”, “Gül dəstəsi”, “Natürmort meyvələr”, “Güllər natürmort”, “ Qızıl gül”, “ Yığışdırılmamış süfrə”, “Almalar”, “Heyva xurma”, “Keramika ilə natürmort”, “ Qab qacaq”, “ Lalələr”, “Qızıl gül natürmortu” və başqalarını qeyd etmək olar.

“Yığışdırılmamış süfrə” natürmortun kompozisiyasını cəlb edən tamamilə sərbəst şəkildə işlənməsidir. Rəssam əsəri işləyərkən adi əşyalarının formalarının dəqiqliyi və sadəliyini maraqlandırır. Tağı Tağıyev böyük həvəslə, şəffaf şüşə içərisindəki içilməmiş şərabın təzadlığını, böyük stəkandakı suyun rəngsizliyini, şampan şərabı ilə dolu olan büllur qədəhin naxışlarını, stəkanın içindəki qaşığı, yanındakı boşqabın içindəki meyvə dilimlərini, süfrənin üstündəki üç cür gülqabındakı gülləri, tablonun sol tərəfdə süfrədən sanki bir az qıraqda şampanı da, bıçağın həcmliyini də böyük həvəslə təsvir etmişdir. Əsərdə əsasən açıq-tünd rənglərdən istifadə edilmişdir. Arxa fonda tünd rəngdən, süfrə üzərində açıq rənglərdən istifadə etmişdir.

“Qızıl gül natürmortu” natürmort sərbəst şəkildə işlənib. Rəssam əsəri işləyərkən əşyaların dəqiqliyinə, formasına, sadəliyinə diqqət etmişdir. Rəssam böyük məharətlə, ağ süfrə üzərindəki stolda açıq rənglərdəki qızıl gülləri, bozumtul bıçağı, qızıl güllərin altdakı narıncı və göy rəngdəki iki kəlağayı və kəlağayın yanında ağ fincanı təsvir etmişdir. Əsərin arxa fonundakı rəng tünd qəhvəyi rəngdən, arxa fondakı şəkil tünd rəngli şəkillərdən, yerdəki döşəmə tünd qəhvəyi rəngdən istifadə edilmişdir.

“Stəkanla natürmort” əsəri öz parlaqlığı, dəqiq kompozisiya quruluşu ilə diqqəti cəlb edir. Əsər kətanda yağlı boyadan çəkilmişdir. Tağı Tağıyev bu əsərdə stol üstündəki ağ süfrə üzərində dupduru su qabındakı suyu, ortada çaydanı, içində bir az çay olan stəkanları və fincanı nəlbəki ilə, fincanın yanında razetkada içində xurma və onun yanında iki kitab təsvir edilmişdir. Çaydanın üzərindəki rənglər uzaqdan güllər kimi təsvir edilib. Əsasən əsərdə açıq

rənglərdən istifadə edilib.

"Qızılgül" rəssam əsərdə əsasən qızıl güllərdə ağ və qırmızı rəngdən istifadə etmişdir, yarpaqlarda isə yaşıl rəngdə istifadə etmişdir. Güllər güldan qabın içində, güldankı su isə bir az bulanıq formada təsvir edilib. Arxa fondakı rəng isə sanki mavi ağ rəngin qarışığı kimi təsvir edilib.

"Almalar" rəssam bu əsərində almalara həsr edib. Almaların bəziləri qabda bəziləri isə parça üzərində təsvir edilib. Parçaların üzərindəki almalar yaşıl, qırmızı rəngdə, qabın içindəki almalar isə sarı, narıncı və qırmızı, almaların üzərindəki parça isə göy sarı tonlardan istifadə olunub.

"Heyva, xurma" rəssam əsərdə iki heyva, üç xurma və parçadan təsvir edib. Əsərdə əsasən rəssam rəng tonlarında narıncı, yaşıl və mavi rəngdən istifadə edib. Xurma daha çox narıncı qırmızı rəng tonundan, heyva isə sarı yaşıl rənddən, parçada mavi, ağ rənglərin qarışığından istifadə olunub.

Azərbaycanın xalq rəssamı Davud Kazımovun yaradıcılığında Natürmort janrı üstünlük təşkil etmişdir. Bu sahədə rəssamın: "Natürmort: Güllər", "Ağ Yasəmən", "Ağ gül", "Alma və nar", "Bənövşələr", "Bənövşə", "Güllər", "Qərənfil", "Qızılgü", "Mis qablarla natürmort", "Mis qabla", "Qəhfədanla natürmort", "Yemiş və meyvələr", "Şaftalılar", "Portağallar", "Natürmort", "Emalatxanada", "Meyvələr", "Natürmort: Liliya", "Meyvələr və güllə", "Saxsı qab və meyvələr", "Şərq natürmortu", "Payız gülü" və. s qeyd etmək olar.

"Ağ Yasəmən" rəssam əsərdə yasəmən və portağal meyvəsindən və iki güldan da istifadə edib. Rəssam əsərdə yasəmənə ağ rəng versə də, yasəmən gülü daha çox bənövşəyi rəngində, portağal meyvəsi narıncı rəngdə, güldan tünd qəhvəyi, güldanın altdakı parça mavi rəngdə çəkilmişdir. Portağal meyvəsinin biri ağ parça üzərində, digəri isə narıncı parça üzərində təsvir olunub.

"Alma və nar" Davud Kazımov bu əsərdə daha çox payız fəslini xatırladır, çünki payız fəslin meyvələrdən alma və nardan istifadə edib. Almaların bəziləri tünd rəngdə qab içərisində, digərləri isə tünd və qırmızı və sarı rəngdə parça üzərində, bir hissəsi isə dilim formada təsvir olunub. Arxa fondakı parça daha çox sarı tünd rəngdə bir hissə açıq, digər hissəsi isə tünd rəngdə istifadə olunub. Meyvələr isə ağ, sarı qarışığı rəngdəki parça üzərində çəkilmişdir. Əsər kətan üzərində yağlı boyadan istifadə edilib.

"Qərənfil" rəssam bu əsərdə kətan, yağlı boyadan istifadə edib. Əsərdə rəssam qırmız və ağ rəngdəki güldan içindəki qərənfildən, portağal, alma və nardan təsvir olunub. Portağalların bəziləri qab içində, digərləri isə parça üzərində təsvir olunub. Əsərin arxa fondakı rəng ağ qarışıq rənglərdə, meyvələrin altdakı parça isə narıncı qırış formasında təsvir olunub.

"Yemış və meyvələr" rəssam əsərdə sini içində şaftalı, gavalı və yemişdən çəkmişdir. Yemişin bir hissəsi dilim formasında, siniyə toxunmuş formada təsvir olunub. Arxa fondakı parça isə ağ rəngdə, bir hissəsi isə meyvələr altda qırış formada təsvir olunub. Şaftalı və göyəm tünd rəngdə çəkilmişdir.

"Saxsı qab və meyvələr" Davud Kazımov bu əsərdə portağal, alma, yemiş, güldan sinidən təsvir olunub. Meyvələrin bir hissəsi yemiş dilim formada sini içində, digərləri isə parça üzərində təsvir olunub. Arxa fondakı parça sarı rəngdə, digəri isə kilimdən, kilim bir ucu isə meyvənin altda təsvir olunub. Kiliмə söykənmiş bir hissəsində isə bütöv formada yemiş təsvir olunmuşdur. Kətan, yağlı boyadan istifadə olunub.

Təbiətə vurğun olan xalq rəssamı Səttar Bəhlulzadə yaradıcılığında Natürmort janrı üstünlük təşkil etmişdir. Rəssamın əsərləri: "Boşqab ilə natürmort", "Lalələr", "Sarı natürmort", "Yemişlər", "Natürmort", "Kəlağayı ilə natürmort" və s. qeyd etmək olar.

“Sarı natürmort” Səttar bu əsərə sarı natürmort adı qoysada burada daha çox meyvələr təsvir olunub. Daha çox payız fəslini xatırladır. Çünki, payızda yetişən meyvələrdən, nar, heyva, alma təsvir olunub. Nar və heyvanın bir hissəsi asılmış formada üzü aşağı, digəri isə parça üzərində təsvir olunub. Narın bəzilərri qırmızı, acıq tonlarda, heyva isə daha çox sarı rəngdən istifadə edilib. Asılmış meyvənin arxa fondakı rəng isə mavi rəngdə istifadə edilib.

“Lalələr” rəssam bu əsərdə lalələrdən təsvir edib. Laləri qırmızı, içini isə qara rəngdə, yarpaqları açıq yaşıldan, arxa fondakı rəng isə sarı rəngdə təsvir olunub. Lalələrin bəziləri açılmış, bəziləri isə üzü aşağı formada, bəziləri isə açılmamış formada təsvir edilib. Əsərə baxanda rəssam lalələrin bəziləri sanki küskün formada təsvir edib.

“Yemişlər” rəssam natürmort adına yemişlər versə də daha çox burada digər meyvələr və güllər təsvir olunub. Burada yemiş, nar, armud, bibər, portağal və başqa meyvələr, nərgiz gülü güldan qabında təsvir edilib. Meyvələrin bir qismi yuxarıdan üzü aşağı formada, bir qismi isə yerə düzülmüş formada təsvir olunub. Daha çox açıq rənglərdə mavi, sarı, qırmızı rəngdə istifadə olunub.

**Məqalənin aktuallığı.** Natürmort təkcə təsviri sənətin müstəqil bir janrı kimi mövcud olmayıb, eyni zamanda yeni yaradıcılığa başlayan rəssamlar üçün böyük təlim mənası kəsb etdiyindən məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Azərbaycan rəngkarlığında tanınmış bir sıra rəssamların natürmort janrlı əsərlərinin təsviri xüsusiyyətləri təhlil olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Quliyeva G. Tağı Tağıyev. Bakı. 2013.
2. Həbibov N. Tağı Tağıyev. Bakı, 1960.
3. Əliyev Z. Davud Kazımov. Bakı: Təhsil, 2012.
4. Əliyev Z. Sənətin Məcnunu. Bakı, 2009.
5. Fərzəliyev Çingiz. Natürmort janrı haqqında. Bakı, 2003.

**Д. Юузбащыюева**

## Особенности искусства Азербайджанского живопися натюрморта в советское время

## Резюме

В статье дана информация о художественных особенностях произведений, выполненных в жанре натюрморт живописи Азербайджана Советского периода. Отображены описание и анализ произведений жанра натюрморт, созданных народным художником Саттаром Бахлулзаде, народным художником Таги Тагиевым и народными художником Давудом Казымовым.

**D.V.Yuzbashıyeva**

# Artistic originality of the soviet period Azerbaijan genre painting natumort

## Summary

İn this article give us about artistic features of fullfilled "Naturomat" genre works in Soviet times's Azerbaijan's paintings. Nation painter S.Bahlulzadeh's nation painter D.Kazimov 's analysis and description of 'naturomat' genre works find their reflection which created in different times.

**Redaksiyaya daxil olub:** 25.02.2019